COP29 - məqsədlərə nail olundu

Azərbaycanın sədrliyi ilə iqlim sammitinin yüksək səviyyədə keçirilməsi tarixi uğurdur

Qalib ölkə olaraq Azərbaycan özünün yeni iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir. Söhbət "yaşıl enerji" və "yaşıl iqtisadiyyat"dan gedir.

Azərbaycanın enerji strategiyasında bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrik ixracı ölkənin əsas prioritetlərindəndir. Ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən də mühüm vəzifə olaraq qarşıya qoyulub, əsas xətt kimi qəbul olunub. Miqyasına və əhəmiyyətinə görə dünyanın ən böyük tədbiri COP29-a ev sahibliyi Azərbaycanın həm iqtisadi potensialını, həm də beynəlxalq nüfuzunu nümayiş etdirdi.

(davamı 7-ci səhifədə)

COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.

Cari il noyabrın 11-23-də Bakıda keçirilən COP29-un yekun iclasında mühüm qərarlar qəbul olundu.

COP29

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

COP29 - məqsədlərə nail olundu

Azərbaycanın sədrliyi ilə iqlim sammitinin yüksək səviyyədə keçirilməsi tarixi uğurdur

(əvvəli 1-ci səhifədə)

"Demək olar ki, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu. Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında deyib. Azərbaycanın "Yaşıl gündəliy"inə diqqətçəkən dövlət başçısı qeyd edib ki, bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti bir regionumuzda 230 meqavatlıq günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanıb. Bu layihənin icrası sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir. 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Həmçinin ixrac bazarlarına diqqət yetirilir və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Ölkəmizdə və Qafqazda sülh, inkişaf və təhlükəsizlik sistemi dünyaya mühüm töhfədir. Qlobal səviyyədə nüfuzlu dövlət və lider kimi tanınan Azərbaycanla bağlı hər hansı bir proses təbii olaraq beynəlxalq miqyasda da diqqətlə qarşılanır və onun ciddi təsirləri olur. Eyni zamanda Azərbaycanın və onun Liderinin müstəqil siyasəti müəyyən xarici dairələrdə, qruplarda, hətta bəzi dövlətlərdə narahatlıq və qısqanclıq yaradır. Prezident cənab İlham Əliyevin təbirincə desək, Azərbaycan dünya miqyasında çox böyük layları yerindən tərpədib. Ancaq respublikamızın son onillikdə qlobal problemlərin həllinə verdiyi töhfələrlə qazandığı böyük nüfuz, etimad bu müstəqil siyasətin davamlılığını arzulayan dövlətlərin və xalqların əksəriyyət təşkil etdiyini də göstərir.

"Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək". Dövlət başçısı İlham Əliyev ötən ilin dekabrında COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı müşavirədə bu mühüm məqamı da xüsusi qeyd etdi ki, bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir.

Prezident COP29 tribunasından ölkəmizin iqtisadi qüdrətindən danışaraq bəyan etdi ki, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkə qura bildik. Eyni zamanda işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji"nin inkişafı, Günəş və külək enerjisi layihələri ilə bağlı fəal işlər gedir. Bütövlükdə, "yaşıl enerji" istehsalı ölkəmizin enerji strategiyasının əsas istiqamətlərindən biridir.

Bakıda keçirilən konfrans Azərbaycanın liderliyi ilə kifayət qədər uğurlu nəticələrə imza atdı. Əldə edilən razılaşmaya, yekun qərara əsasən demək olar ki, COP29 müəyyən etdiyi hədəfə çatdı. Bu mötəbər tədbirin təşkilatçısı və tərəfləri həyati razılaşmalara yaxınlaşdıran əsas hərəkətverici qüvvə kimi Azərbaycanın növbəti parlaq qələbəsidir. "Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu". Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkədəki paylaşımında yer alıb. "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycanın bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdığını vurğulayan dövlət başçısı bildirib ki, bütün proses boyu inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər: "Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik".

Dövlətimizin başçısının dünya iqlim sammitinə verdiyi qiymət Azərbaycanın qlobal missiyaya sədrliyinin tarixi uğurunu çox dəqiq və yığcam şəkildə əks etdirdi. Çünki COP29-un təsirli nailiyyətlərinin arxasında aylarla davam edən geniş hazırlıq işləri və bəşər övladının həyatını dəyişən iki həftəlik gərgin və çətin müzakirələr dayanırdı. İqlim maliyyəsi fondu üçün nəzərdə tutulan hədəf - 2035-ci ilə qədər hər il 300 milyard dollar toplanması ilə bağlı razılıq əldə olunub və bu vəsaitin ayrılmasını inkişaf etməkdə olan ölkələr inkişaf etmiş dövlətlər qarşısında əsas tələb kimi qoydular. Digər tərəfdən, COP çərçivəsində hər bir ölkə qlobal istiləşmənin 1,5°C saxlanması, dekarbonizasiya ilə bağlı öhdəlik götürüb və bu öhdəliklərə riayət etmək üçün öz ölkələrində milli səviyyədə müəyyən tədbirlər görməli, ev tapşırıqlarını yerinə yetirməlidirlər. Şübhəsiz ki, ilk baxışdan bu, bir o qədər asan görünməyə bilər, çünki bu tədbirlər paralel aparılmalı, bərpaolunan və "yaşıl enerji"yə keçid prosesində ölkələrin iqtisadiyyatlarına az zərər vurmalı, iş yerlərinin ixtisarına səbəb olmamalıdır. Aparılan müzakirələrin nəticələrinə görə, demək mümkündür ki, COP29 çərçivəsində konsensusa gəlindi, iqlim maliyyəsi ilə bağlı ümumi razılıq əldə olundu. Vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar da bu prosesdə fəal iştirak edərək ona töhfə verməyə çalışdılar, ekoloji problemlər və ətraf mühit məsələləri ilə bağlı önəmli məsələləri qaldırdılar. Lakin istər iqlim maliyyəsi, istərsə də qlobal iqlim dəyişmələri ilə mübarizə istiqamətində həlledici qərarları müvafiq hökumətlər verir.

COP29 bu sarıdan çox faydalı və səmərəli müzakirələr, tarixi qərarlarla yadda qaldı, Paris sazişinin maddələri üzrə müvafiq razılaşmalar əldə olundu. Bu, həm də BMT-nin İqlim Dəyişmələri üzrə 29-cu sessiyasının Tərəflər Konfransının iştirakçılarına öz milli siyasətlərini bu hədəflərə yönəltmək, bu istiqamətdə müvafiq islahatlar həyata keçirmək üçün bir təkan olacaq. COP29 çərçivəsində bir çox ölkələrin dövlət və hökumət başçıları bu istiqamətdə müvafiq tədbirlər həyata keçirəcəyi ilə bağlı bəyanatlar və açıqlamalar verdilər, ölkələrin vətəndaş cəmiyyəti təşkilatları tərəfindən də qarşıdakı dönəmdə ekoloji sahədə müvafiq proqramların icrası nəzərdə tutulur. Bunlar onu göstərir ki, COP29 məqsədlərinə nail oldu.

Mustafa KAMAL,
"Respublika".